# İnsanların sağlamlığı Azərbaycan dövləti üçün prioritet məsələdir

*Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı olub. Prezident İlham Əliyev hospitalın açılışında videoformatda iştirak edib. Açılışda bu tibb müəssisəsinin yaradılmasına görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya dərin minnətdarlıq bildirilib, dövlətimiz tərəfindən tibb işçilərinin, həkimlərin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə görülən işlərdən məmnunluqla danışılıb. Eyni zamanda, modul tipli hospitalın ən müasir tibbi avadanlıqla təchiz edilməsi nəticəsində koronaviruslu xəstələrin müalicəsi işinin yüksək səviyyədə aparılacağına əminlik ifadə olunub.*



***Pandemiya həm ölkə iqtisadiyyatına, həm də insanların sosial vəziyyətinə mənfi təsir göstərmişdir. Bu təsirin fəsadlarını azaltmaq üçün praktiki addımlar atılır. Beş milyona yaxın insan geniş sosial paketlə əhatə olunub. Həm dövlət sektorunda, həm özəl sektorda işləyənlər, eyni zamanda, işsizlər, o cümlədən qeyri-formal formada işləyənlər, aztəminatlı təbəqəyə aid olan insanlar – bütün kateqoriyadan olan insanlar dövlət tərəfindən maddi dəstəklə təmin edilib. Bu, bir daha onu göstərir ki, insanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Videoformatda hospitalın ən müasir standartlara cavab verdiyi, burada koronavirus infeksiyasına yoluxan xəstələrin müalicəsi üçün lazımi şəraitin yaradıldığı, müasir avadanlıqların quraşdırıldığı qeyd edilib. Bildirilib ki, bu il iyulun 7-də açılan 800 çarpayılıq hospital artıq 2277 çarpayılıq tibb müəssisəsinə çevrilib. Məssisədə hər bir çarpayı oksigen xəttinə birləşmiş cihazlarla təmin olunub.

Hazırda tibb müəssisəsində, ümumilikdə, 267 reanimasiya çarpayısı var. Burada quraşdırılan avadanlıqlar, yaradılan laboratoriyalar istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə aparmağa imkan verir.

Ümumilikdə, ölkədə modul tipli xəstəxanaların istifadəyə verilməsi koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunması üçün vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsində böyük rol oynayır.

Tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşən Prezident İlham Əliyev çıxış edərək deyib: "Pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət almışdır. Bu məqsədlər üçün böyük vəsait ayrılmışdır, bütün imkanlar səfərbər edilmişdir. Çünki mövcud çarpayı fondu imkan vermirdi ki, biz bu dəhşətli pandemiya ilə uğurla mübarizə aparaq. Cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırılmışdır. Ölkəmizin ən gözəl və ən müasir xəstəxanası – Yeni Klinika açılmışdır. Yeni Klinikada çarpayıların sayı 600-ə yaxındır. Hazırda, təqribən 400-ə yaxın çarpayı hazır vəziyyətdədir. Bununla bərabər, modul tipli 11 xəstəxana inşa edilmişdir. Bu xəstəxanalarda çarpayıların sayı 4100 səviyyəsindədir".

Dövlətimizin başçısı nitqində görülən işlərə əsaslanaraq, COVID ilə mübarizədə Azərbaycanın çox uğurlu fəaliyyət göstərdiyini, qəbul edilən qərarların vaxtında və yüksək keyfiyyətlə icra edildiyini xüsusi vurğulayıb. Eyni zamanda, yaradılan şəraitin xəstəliklə bağlı vəziyyəti nəzarət altında saxlamağa imkan verdiyini xatırladıb. Ölkə rəhbəri hazırda COVID xəstələri üçün 46 xəstəxananın fəaliyyət göstərdiyini, həmin xəstəxanaların 41-nin son 17 il ərzində inşa edildiyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, şəhərlərimizdə müasir tibb ocaqlarının yaradıldığını da qeyd edib: "Təsəvvür etmək çətin deyil ki, əgər biz vaxtında bu addımı atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər vaxtında bu xəstəxanalar tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz olunub və bu gün də bu proses davam etdirilir".

Dövlətimizin başçısı nitqində ölkədə virus infeksiyası ilə əlaqədar bir sıra digər məsələlərə də toxunub. Bildirilib ki, COVID ilə mübarizədə Azərbaycanın səhiyyə sisteminin güclü maddi-texniki bazası xüsusi rol oynayır. Bununla bərabər, laboratoriyaların sayı böyük dərəcədə – bir neçə dəfə artırılıb. Belə ki, pandemiyanın ilk vaxtlarında ölkədə cəmi 6 laboratoriya fəaliyyət göstərirdi. Hazırda belə laboratoriyaların sayı 45-ə çatdırılıb. Bununla bərabər, respublikada 900 mindən çox test keçirilib. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerdə qərarlaşıb. Bu da təsadüfi deyil. Çünki test prosesinin diqqət mərkəzində saxlanılması, onun keçirilməsinə xüsusi önəm verilməsi yoluxma hallarını aşkarlanması prosesini şərtləndirir. COVID ilə mübarizədə əsas vəzifələrdən biri də məhz elə budur: Bütün yoluxanların müayinəsi gerçəkləşdirilməli və onlara vaxtında tibbi xidmət göstərilməlidir.

Dövlətimizin başçısının çıxışında pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə xüsusi diqqət göstərildiyi, ümumiyyətlə, səhiyyə sistemində çalışan insanların daim dövlət tərəfindən qayğı ilə əhatə olunduğu xüsusi vurğulanıb. Qeyd edilib ki, həkimlərin həm iş yerlərinin müasirləşdirilməsinə, həm də onların maliyyə vəziyyətinin yaxşılaşdırılmasına hər zaman önəm verilib. Pandemiya dövründə bu yanaşma daha da gücləndirilib: "Təkcə onu demək kifayətdir ki, COVID xəstələrinə xidmət edən həkimlərin əməkhaqqı 3-5 misli artırılıb. Ancaq burada əsas problem həkimlərin sayındadır. Çünki heç bir ölkə bu pandemiyaya hazır deyildi. Heç kimin ağlına gələ bilməzdi ki, dünya belə bir bəla ilə üzləşəcək. Bizdə və eləcə də bütün başqa ölkələrdə həkimlərin sayı normal həyat rejiminə hesablanıb. Ona görə, əlavə həkimlərin Azərbaycana dəvət edilməsi gündəlikdə duran məsələlərdən biri idi. Hesab edirəm ki, biz operativ və səmərəli addımlar nəticəsində bu sahədə də məsələni həll etdik. Azərbaycana beş ölkədən– Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlmişdir və bu həkimlər bizə kömək göstərirlər".

Videoformatda keçirilən görüşdə respublikada COVID ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlərin artıq müsbət nəticələr verdiyi, uğurlu dinamika əldə edildiyi və bu dinamikanın bundan sonra da qorunub saxlanılacağına əminlik ifadə edilib. Eyni zamanda, bu dəhşətli bəlanın aradan qaldırılması işində ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatı ilə ilk günlərdən sıx təmas yaratması, gerçəkləşdirilən layihələrə adı çəkilən beynəlxalq qurum tərəfindən yüksək qiymət verilməsi, Azərbaycanın nümunəvi ölkə adlandırılması məmnunluqla xatırladılıb. Həmçinin, Azərbaycanın məsuliyyətli və beynəlxalq müstəvidə böyük nüfuz qazanan dövlət olaraq, 30-dan çox ölkəyə humanitar yardım göstərməsi ümumi mübarizəyə verdiyi böyük töhfə kimi qiymətləndirilib.

Prezident İlham Əliyev çıxışında pandemiyanın həm ölkə iqtisadiyyatına, həm də insanların sosial vəziyyətinə mənfi təsir göstərdiyini də xatırladıb: "Bu təsirin fəsadlarını azaltmaq üçün praktiki addımlar atılır. Beş milyona yaxın insan geniş sosial paketlə əhatə olunub. Həm dövlət sektorunda, həm özəl sektorda işləyənlər, eyni zamanda, işsizlər, o cümlədən qeyri-formal formada işləyənlər, aztəminatlı təbəqəyə aid olan insanlar – bütün kateqoriyadan olan insanlar dövlət tərəfindən maddi dəstəklə təmin edilib. Bu, bir daha onu göstərir ki, insanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir".

Dövlətimizin başçısının çıxışında pandemiyanın iqtisadi sahədə yaratdığı çətinliklərə də toxunulub. Virusun mənfi təsirlərini zəiflətmək məqsədilə reallaşdırılan operativ layihələrin artıq müsbət nəticələrlə müşahidə edildiyi, elə buna görə də başqa ölkələrlə müqayisədə Azərbaycanda iqtisadi sahədə vəziyyətin daha yaxşı olduğu bildirilib. Belə ki, Avropanın inkişaf etmiş ölkələrində iqtisadi tənəzzül 10 faiz, hətta, 25 faiz səviyyəsində qeydə alınsa da, respublikamızda görülmüş tədbirlər nəticəsində 7 ayda iqtisadiyyat cəmi 2,8 faiz aşağı düşüb.

Prezident İlham Əliyev çıxışında ölkəmizin postpandemiya dövrünə hazır olması zəruriliyinə də toxunub. COVİD–19-un nə vaxt tamamilə aradan qalxacağının, postpandemiyanın nə vaxt başlayacağının hələ məlum olmadığını diqqətə çatdıran dövlətimizin başçısı artıq bütün dünyada gedən araşdırma və tədqiqatların virusun sona yaxınlaşacağına ümid yaratdığını da bildirib. Ölkə rəhbəri, eyni zamanda, hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparıldığını, ancaq bu məqsədin hazırlanan vaksinin bütün sınaq testləri və beynəlxalq sertifikatlaşdırma aparılandan sonra reallaşacağını diqqətə çatdırıb: "Hesab edirəm ki, biz o vaxta qədər öz addımlarımızı mövcud vəziyyətə uyğun atmalıyıq. İlk günlərdən biz bunu etmişik. Bu altı ay ərzində məhdudlaşdırıcı tədbirlərin sərtləşdirilməsi, eyni zamanda, yumşalma addımları atılmışdır və təqribən iyul ayının ortalarından başlayaraq müsbət dinamika artıq özünü büruzə verdi. Belə olan halda, əlbəttə ki, biz yumşalma addımlarımıza da başladıq və təkcə avqust ayında yumşalma tədbirlərinin sayı 3-ə çatmışdır. Əgər müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, onda əminəm ki, bundan sonra da yumşalma tədbirləri görüləcəkdir. Çünki hazırda ölkəmizdə hər gün 100-dən 200-ə qədər insan yoluxur və əvvəlki aylarla müqayisədə bu, əlbəttə ki, daha yaxşı nəticədir".

Dövlətimizin başçısı çıxışında bu gün pandemiya ilə mübarizənin davam etdirildiyini, vəziyyətin daim nəzarətdə saxlanıldığını, bu məqsədlə gündəlik monitorinq aparıldığını və buna əsaslanaraq yumşalma tədbirlərinin gerçəkləşdirildiyini vurğulayıb. Ölkə rəhbəri bütün bunlarla bərabər, sərt karantin rejiminin tədbiq edildiyi dövlətlərin təcrübəsinə də nəzər salınacağını diqqətə çatdırıb. Bildirib ki, hazırda bir neçə ölkə artıq öz sərhədlərini və bir çox obyektlərini açıb, turistləri qəbul etməyə başlayıb: "Ancaq biz həmin ölkələrdə nəyi görürük? Onu görürük ki, orada xəstələrin sayı kəskin artıb. O cümlədən inkişaf etmiş Avropa ölkələrinin təcrübəsinə baxsaq görərik ki, avqust ayında xəstələrin sayı ən pik həddə çatıbdır, hətta aprel ayının səviyyəsinə qalxıbdır. Baxmayaraq ki, aprel ayından yay aylarına qədər bütövlükdə dünyada, o cümlədən, Avropada xəstələrin sayının azalması müşahidə olunurdu. Yəni, bu, nəyi göstərir, bir daha onu göstərir ki, bu xəstəlik heç də yoxa çıxmayıb. Bu xəstəlik var və belə olan halda dövlət tərəfindən bütün lazımi addımlar atılmalıdır, eyni zamanda, vətəndaşlar da çox sadə qoruyucu metodlardan istifadə etməlidir – məsafə saxlamalıdır, maska taxmalıdır, dezinfeksiya vasitələrindən istifadə etməlidir".

Tibb müəssisəsinin kollektivi ilə videoformatda keçirilən görüşdə deyilib ki, Azərbaycanda tətbiq olunan qaydalar, vəziyyətə uyğun şəkildə atılan addımlar nəticəsində artıq bir çox şəhərlərdə bütün karantin məhdudiyyətləri aradan qaldırılıb. Ancaq Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda bu, saxlanılıb. Belə bir şəraitdə təəssüf ki, bu vəziyyəti dərk etməyən, məsuliyyətini itirən insanlar da mövcuddur və onlar qaydaları kobudcasına pozurlar. Bu cür hallar aşkarlanarkən təbii ki, ciddi cəza tədbirləri də görülür. Cəza tədbirləri bütün kateqoriyalardan olan insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilmir və bu hal indən sonra da davam etdiriləcək: "İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar, digər tərəfdən qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və bələliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək".

Prezident İlham Əliyevin reallaşdırdığı siyasət bir daha göstərir ki, dövlətimiz üçün insan amili, vətəndaşların sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı başlıca vəzifədir və bu məqsədə nail olmaq üçün ötən müddətdə bütün vasitələrdən istifadə edilib, koronavirusun aradan qaldırılması məsələsinə xüsusi önəm verilib. Təbii ki, vətəndaşlarımız da məsuliyyətlə davranaraq balansın qorunması, virusla mübarizədə birliyin nümayiş etdirilməsi üçün müəyyənləşdirilən qayda və tövsiyələri yüksək səviyyədə diqqətdə saxlamalıdırlar. Bu isə, ilk növbədə, əldə edilən müsbət nəticələri və virusla mübarizədə qazanılan uğurları şərtləndirir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***